2018-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 51618 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 9,5 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,7 faiz artaraq 48465 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 93,9 faizini təşkil edir.

2017-ci ildə muxtar respublikada tikinti sahəsində 12663 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı illə müqayisədə 1,2 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilə nisbətən 3 faiz artaraq 478,1 manat olmuşdur.